# Sahibkarlar üçün vergi və gömrük rüsumları yüngülləşdirildi

## Prezident İlham Əliyevdən tikinti sektorunda fəaliyyət göstərən iş adamlarına böyük dəstək

*"Azərbaycan iqtisadiyyatının vəziyyəti çox möhkəmdir və müsbətdir. Bütün iqtisadi göstəricilər bunu göstərir. Hətta böhranlı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib".*



Bu sözləri yanvarın 18-də Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərin həlli ilə bağlı keçirdiyi müşavirədə söyləyib. Dövlət başçısı qeyd edib ki, indiki şəraitdə qeyri-neft sektorunun inkişafı daha böyük prioritet olmalıdır: "Mən qeyri-neft sektorunun inkişafı haqqında artıq neçə ildir ki, həm deyirəm, həm də praktiki addımlar atılır. Regionların inkişafı, infrastrukturun, xüsusilə də sosial infrastrukturun yaradılması, yolların, qaz xətlərinin, elektrik stansiyalarının, məktəblərin, xəstəxanaların, kənd yollarının tikintisi, müəssisələrin, iş yerlərinin açılması - bütün bunlar son illər Azərbaycan reallıqlarını əks etdirir".

Dövlət başçısı bildirib ki, görüləcək əlavə tədbirlər nəticəsində iqtisadi fəallıq artırılmalıdır, o cümlədən tikinti sektorunda. Prezident Bakıda və digər iri şəhərlərdə tikinti layihələrinin icra edilməsi üçün iş adamlarına lazımi şəraitin yaradılmasının vacibliyini vurğulayıb: "Bəzi hallarda burada iş adamları müxtəlif çətinliklərlə üzləşirlər - bürokratiya, korrupsiya. Onlara qarşı əsassız tələblər irəli sürülür. Bütün bunlar yığışdırılmalıdır. Tikinti sektoru tam sərbəst şəkildə inkişaf etməlidir. Əlbəttə ki, şəhərsalma qaydalarına riayət etmək şərti ilə. Biz imkan verə bilmərik ki, burada xaotik vəziyyət yaransın. Ancaq bütün süni əngəllər aradan qaldırılmalıdır. Bizi ən çox geriyə salan məhz tikinti sektorundakı qeyri-normal vəziyyətdir. Çünki burada o qədər icazələr tələb olunur və o qədər pozuntular var ki, hətta beynəlxalq qurumlar da bunu qeyd edirlər. Ona görə mən ciddi tapşırıq verirəm bütün şəhər və rayon icra hakimiyyəti orqanlarına, ilk növbədə Bakı Şəhər İcra Hakimiyyətinə ki, bundan sonra tikinti ilə bağlı heç bir süni əngəl olmamalıdır".

### PREZİDENTDƏN İŞ ADAMLARINA ÇAĞIRIŞ

Prezident İlham Əliyev müşavirədə bildirib ki, tikinti ilə bağlı heç bir süni əngəl olmamalıdır. Dövlət başçısı bununla bağlı iş adamlarına da müraciət edib: "Əgər sizdən kimsə qanunsuz nə isə tələb edəcəksə birbaşa məlumat verin və o qanunsuz əməlləri törətmək istəyənlər ciddi şəkildə cəzalandırılacaqlar. Mənə mütəmadi qaydada məlumat verilməlidir ki, hər rüb nə qədər tikinti layihəsi icra edilir, harada və bunun əmək bazarına olan təsiri nədən ibarətdir?! Burada, əlbəttə ki, biz ilk növbədə iş adamlarının fəaliyyətini gözləyirik. Eyni zamanda, ipoteka xətti ilə böyük tikinti layihələri icra edilə bilər. Əfsuslar olsun ki, bizdə bu sektorda durğunluq müşahidə olunur. Mən ipoteka ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm, o cümlədən Nazirlər Kabinetinin toplantılarında. Ancaq bu proses hələ ki, kütləvi xarakter almayıb. Bunu dərhal başlamaq, yəni, davam etdirmək lazımdır. Təxirəsalınmaz tədbirlər görülməlidir. Bu tədbirlər haqqında mənə məlumat verilməlidir. Biz nə etməliyik ki, ipoteka xətti ilə tikiləcək bu binaların inşasını sürətləndirək?!"

Prezident məmurlara bütün iqtisadi və maliyyə sisteminin şəffaflaşdırılmasını tapşırıb. Xüsusilə bank sektorunun inkişaf etdirilməsinin vacibliyini önə çəkən dövlət başçısı bildirib ki, sahibkarlığın inkişafı üçün biznes mühiti daha da yaxşılaşdırılmalıdır: "İş adamlarına daha da yaxşı şərait yaradılmalıdır. Bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Azərbaycan son 10 il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Sadəcə olaraq, indiki şəraitdə biz fəaliyyətimizi daha da təkmilləşdirməliyik. Dövlətin bu istiqamətdə çox ciddi proqramı var. Əminəm ki, belə olan halda 2016-cı ildə Azərbaycanda iqtisadi inkişafla bağlı heç bir problem olmayacaq. Qarşıda duran bütün sosial və iqtisadi vəzifələr icra ediləcək. Əminəm ki, belə də olacaq".

Prezident İlham Əliyev müşavirədəki çıxışında geniş özəlləşdirmə proqramının hazırlanması üçün hökumətə müvafiq göstərişlərin verildiyini də söyləyib. Dövlət başçısı qeyd edib ki, özəlləşdirmə prosesinə həm xarici, həm də yerli investorlar cəlb edilməlidir: "Hələ ki, Azərbaycanda bir çox özəlləşdirilməmiş müəssisələr var və onların fəaliyyəti dayanıb. Bəzi hallarda bu müəssisələr yarıdağılmış vəziyyətdədir, onların çox böyük torpaq sahələri var. Biznes mühitini yaxşılaşdırmaq və iqtisadi canlanmanı sürətləndirmək üçün mütləq geniş özəlləşdirmə proqramı həyata keçirilməlidir. Bu proqram tam şəffaf keçirilməlidir, beynəlxalq ekspertlər bu işə cəlb olunmalıdır. Yerli və xarici investorlar üçün elə şərait yaratmalıyıq ki, onlar böyük maraqla, həvəslə vəsait qoysunlar".

Xatırladaq ki, müşavirədən sonra Prezident İlham Əliyev "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanla "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilib. Həmçinin İqtisadiyyat Nazirliyinə investisiya təşviqi sənədinin və həmin sənədi almaq üçün ərizənin formalarını bir ay müddətində müəyyən etmək tapşırılıb. Nazirlər Kabineti isə Prezidentin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb dövlət başçısına təqdim etməlidir.

### İNVESTİSİYA TƏŞVİQİ SƏNƏDİ NƏDİR?

Artıq Prezident İlham Əliyevin bu Fərmanının dərhal icrasına başlanıb. Belə ki, sahibkarlara investisiya təşviqi sənədinin verilməsi ilə əlaqədar Milli Məclisin iclasında Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna müvafiq dəyişiklik edilib. Hər iki qanunvericilikdə edilən dəyişiklik Azərbaycanda sahibkarlara investisiya təşviqi sənədinin verilməsini nəzərdə tutur. Bu, investisiya fəaliyyəti həyata keçirən hüquqi şəxslərə və fərdi sahibkarlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydaya uyğun olaraq verilən və Məcəllədə nəzərdə tutulmuş güzəştlərin əldə edilməsinə əsas verən sənəddir.

Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, investisiya təşviqi sənədi almış hüquqi şəxslərdən və fərdi sahibkarlardan vergitutma qaydaları haqqında məlumat verilir. Belə ki, investisiya təşviqi sənədini almış şəxs təsərrüfat və digər vergitutma obyektlərini Məcəllə ilə müəyyən edilmiş güzəşt müddəti bitənədək təqdim etdikdə, mövcud investisiya layihəsinə uyğun olaraq mal (iş, xidmət) istehsalına başlamağı və ya davam etdirməyi öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni şəxsə vergi güzəştləri həmin müddətin qalan hissəsi ərzində verilir. İnvestisiya təşviqi sənədini əvvəllər almış şəxs yeni investisiya layihəsinə əsasən istehsal sahəsi qurduqda, bu Məcəllə ilə müəyyən edilmiş vergi güzəştləri şəxsin yeni investisiya layihəsi üzrə İnvestisiya təşviqi sənədi alındığı tarixdən hesablanır. İnvestisiya təşviqi sənədi almış şəxs vergi güzəştlərinin tətbiq olunduğu dövrdə investisiya layihəsinə aid olmayan fəaliyyət göstərdikdə həmin fəaliyyətlə bağlı gəlirlərin və xərclərin uçotunu ayrıca aparmalı və bu fəaliyyətə görə əldə etdiyi gəlirlərdən vergiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ödəməlidir.

Dəyişikliyə əsasən, investisiya təşviqi sənədi almış fərdi sahibkar həmin sənədi aldığı andan əldə etdiyi gəlirin, hüquqi şəxsin həmin sənədi aldığı andan əldə etdiyi mənfəətin 50 faizi 7 il müddətinə gəlir vergisindən azad edilir. Həmçinin bu Məcəlləyə edilən əlavələrə görə, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - investisiya təşviqi sənədini aldığı andan 7 il müddətinə, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2016-cı il yanvarın 1-dən 1 il müddətinə vergi ödəməkdən azad edilir. Məcəlləyə əlavə edilmiş 207.5-ci maddədə qeyd edilir ki, investisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı andan mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.

### BİR İLDƏ 150-YƏ YAXIN İQTİSADİ LAYİHƏ İCRA OLUNACAQ

İqtisadiyyat naziri Şahin Mustafayev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, həmçinin Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında bildirib ki, Prezident İlham Əliyevin imzaladığı "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması haqqında" Sərəncama əsasən, ölkədə qeyri-neft məhsullarının ixracının subsidiyalaşdırılması mexanizmi hazırlanacaq. Onun sözlərinə görə, artıq müvafiq Sərəncam Nazirlər Kabinetinə göndərilib və müəyyən tapşırıqlar da verilib: "Azərbaycanın milli brendinin yaradılması, qeyri-neft ixracının təşviqi və bu prosesdə dövlətin birbaşa iştirakı nəzərdə tutulub. Bununla da Azərbaycanda qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına nail olacağıq".

Nazir əlavə edib ki, kənd təsərrüfatı, emal və sənaye sahəsi üzrə 150-yə yaxın layihə 1 il və ya 1 il yarım ərzində icra olunmalıdır. Onun sözlərinə görə, bunun nəticəsində 15 minə yaxın yeni iş yerinin açılması gözlənilir: "İqtisadi aktivlik yüksəlməlidir. Layihə xərclərinin azalması nəticəsində Azərbaycan məhsullarının rəqabət qabiliyyəti artmalıdır. Dövlət satınalmalarında yerli istehsalın payı artmalıdır. Bununla da daxili istehsalı qorumuş olacağıq".

**Elxan Salahov,**
***"İki sahil"***